# Birinci Qarabağ müharibəsi şəhidinin büstü qoyulub

**Şəhid Sərvər Abdulkərimovun adını daşıyan Qusar rayonu Balaqusar kənd tam orta məktəbinin qarşısında qəhrəman döyüşçünün büstünün açılışı olub.**




Rayon icra hakimiyyəti, hüquq-mühafizə orqanlarının nümayəndələri, şəhidin ailə üzvləri, qazilər və məktəblilərin iştirak etdikləri mərasimdə büstün önünə gül dəstələri düzülüb, şəhidlərimiz birdəqiqəlik sükutla yad olunub.

Çıxış edənlər şəhidin həyat və döyüş yolundan söz açıblar. Bildirilib ki, Sərvər Abdulkərimov Ulu Öndər Heydər Əliyevin 1993-cü il noyabrın 7-də xalqa müraciətindən sonra yaradılan Quba-Qusar batalyonuna könüllü qoşulub. O, 1993-cü il dekabrın 27-də Füzuli rayonu ərazisində Şişqaya uğrunda gedən qanlı döyüşlərdə qəhrəmanlıqla həlak olub.

Şəhidin həyat yoldaşı Şahzadə Abdulkərimova və qızı Ruqiyyə Hüseynova ailələri adından onlara göstərilən diqqətə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, şəhidin nəvələri Sərvər və İlknur hazırda babalarının adını daşıyan məktəbdə təhsil alırlar.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.-7 avqust.-S.5.